Səh. 2 AZƏR MUSAOĞLU YAZIR...
Səh. 5 AFİQ MUXTAROĞLU YAZIR...
Səh. 2 2-Cİ TURDA HANSI PARTİYA QALİB GƏLİB?
Səh. 5 DÜNYANI FANTİNANIN AHI TUTUB
Səh. 3 İBRAHİMXƏLİL YAZIR...
Səh. 6 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
Səh. 4 TƏHSİL NAZİRLİYİ MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLARLA BAĞLI BƏYANAT YAYIB
Səh. 7 CƏNUBİ QAFQAZDA YENİ İQTİSADİ TARAZLIQ



İCTİMAİ QƏZET yeni_yol@mail.ru "იენი იოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 NOYABR
2020-Cİ İL
№017 (121)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## SƏRT MƏHDUDİYYƏTLƏR GƏLƏN İL YANVARIN 31-DƏK DAVAM EDƏCƏK



Dövlət Qurumlarıarası Koordinasiya Şurasının qərarına əsasən, ölkədə yaranmış ağır epidemioloji vəziyyətə görə noyabrın 28-dən etibarən sərt məhdudiyyətlər tətbiq olunur. Qərara əsasən, sərt karantin rejimi yanvarın 31-dək qüvvədə olacaq.

Bu müddət ərzində vətəndaşlar və nəqliyyat vasitələrinin hərəkəti 31 dekabr və 6 yanvar istisna olmaqla saat 21:00-dan saat 05:00-dək məhdudlaşdırılıb.

Bununla yanaşı, şəhərlərarası nəqliyyatın hərəkəti dayandırılıb. Fərdi avtomobillə hərəkət və taksilərin fəaliyyətinə isə icazə verilir.

Restoran və kafelərdə yerində xidmət, idman obyektərinin fəaliyyəti, kütləvi tədbirlərin keçirilməsi qadağan olunub.

Tbilisi, Batumi, Kutaisi, Rustavi, Qori, Poti, Zuqdidi və Telavi şəhərlərində ərzaq mağazaları və apteklərdən başqa bütün ticarət obyektlərinin fəaliyyəti qadağan olunub. Qadağa aqrar bazarlara aid deyil.

Bütün tədris müəssisələrində distant rejim tətbiq olunacaq, dövlət və özəl uşaq bağçaları bağlı olacaq.




## BAŞ NAZİR: GÜRCÜSTANDA VƏZİYYƏT ASAN DEYİL, LAKİN İDARƏOLUNANDIR



Baş nazir Giorgi Qaxaria brifinqdə bildirib ki, "Gürcüstanda vəziyyət asan deyil, çətindir, lakin idarəolunandır".

Onun sözlərinə görə, sentyabrda siyasi proseslərə görə pandemiyanın idarə edilməsində bəzi güzəştlərə gedilib.

"İndi əsas vəzifə Gürcüstanı epidemioloji vəziyyət baxımından avqusta qədər olan səviyyəyə qaytarmaqdır. O zaman ölkə həmin dövr üçün epidemiya ilə mübarizə nöqteyi-nəzərindən ən yaxşı ölkələrdən biri idi", - deyə G.Qaxaria bildirib.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 1200-Ü KEÇİB

www.stopcov.ge saytında noyabrın 30-na olan məlumata əsasən, Gürcüstanda 1267 nəfər koronavirusdan dünyasını dəyişib.




Məlumata görə, ölkədə koronavirusa yoluxanların sayı 135 584 nəfər, sağalanların sayı isə 113 986 nəfər təşkil edib.

Ölkə üzrə karantin rejimində 2104 nəfər, stasionar nəzarətdə 6383 nəfər olub. COVID mehmanxanada olan şəxslərin sayı 3857 nəfə olaraq göstərilir.

Noyabrın 27-nə olan məlumata görə isə, Gürcüstanda tibbi heyət arasında koronavirusa 5 minə yaxın yoluxma halı təsdiqlənib. Bu barədə ölkənin səhiyyə nazirinin müavini Tamar Qabunia bildirib. O, tibb işçilərinin daha çox ev şəraitində yoluxduğunu deyib.

Nazir müavininin sözlərinə görə, səhiyyə işçiləri arasında COVID-19-a ən çox yoluxma halları sentyabr ayının sonunda qeydə alınıb.



# ÖPÜŞƏRƏK GÖRÜŞMƏK MƏDƏNİYYƏTSİZLİYİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Xeyri yoxdur! Vallah xeyri yoxdur! Milyon dəfə de, milyon dəfə göstər, yenə də xeyri yoxdur! Lap yanında yıxıl öl, deyəcək əcəli gəlmişdi, öldü. Gərək özü yıxıla ölə, o zaman inana, necə deyərlər, son ayaqda imana gələ. Onda da çifayda? Gecdi artıq. İt də gedir, ip də.

Zalımın balası harda görür uzaqdan sağ əlininin barmaqlarını düzəldərək, qolunu uzadıb düz üstünə tuşlayaraq sanki istiqaməti itirməsin deyə əlindən naviqator kimi istifadə edir, iri və cəld addımlarla yaxınlaşır ki, birdən qaçırar səni, elə ki, yaxınlaşmağa bir-iki addım qalır, bayaq uzaqdan ox kimi gələn əli sənin əlini tapıb möhkəm sıxaraq qarnına sancılır, əgər hədəfi düz nişan alıbsa əyilib yanağından, yox əgər hədəfi düz nişan ala bilməyibsə boğazından bir öpür ki, marçıltısına tum satan qarının ətrafına yığılmış sırtıq sərçələr hürküb uçuşur, ərincək küçə itləri hürüşməyə başlayır, hamı dönüb sənə baxır.

Sonra da bayaq tələskənliyindən saxladığı məsafəni də aşaraq düz ağzının içinə girib kefini-əhvalını soruşur:

*– Necəsən? Nə var, nə yox? Evdəkilər necədir?*

Bir addım geri çəkilib nəfəs almaq üçün məsafə yaratmaq istəyirsən ki, sən aralandıqca bu yenə də sənə yapışır. Sən aralanırsan, bu yaxınlaşır, sən aralanırsan, bu yaxınlaşır, it əl çəkir, motal əl çəkmir. Avstriya kansleri Sebastyan Kurts Avropa Komissiyasının sədri Jan-Klod Yünkeri öpüşərək görüşməmək üçün itələdiyi kimi, sən də az qalırsan bunun yaxasından tutub itələyərək deyəsən:

– Ay zırrama, sənə nə var necəyəm, sənin kimilərinin ucbatından lap pisəm. Korsan ya kar? Dünyadakı və ölkədəki vəziyyəti görmürsən, ağzımın içinə girirsən. Nə olasıdı? Sənin kimi məsuliyyətsiz qanmazların zibilinə düşüb dünya. Hanı sənin maskan? Hanı sənin sosial məsafən? Hanı sənin qanacağın? Bu salamı adam balası kimi uzaqdan verib, uzaqdan kefimi, halımı soruşsan xəncərinin daşımı düşər? Kim bilir mənə qədər neçə nəfərlə belə qucaqlaşıb öpüşmüsən. Bəlkə yoluxmusan, bəlkə yoluxdurmusan. Mənim günahım nədir ki, sənin kimi yaramazın ucbatından hallarını soruşduğun evdəkilərin yanına gedə bilməyim indi. Cəhənnəm ol, məndən uzaq dur.

AMMA

– Çox sağ ol, yaxşıyam. Evdə də, şükür, salamtçılıqdır. Sən necəsən? – deyib dözməli olursan.

Və bütün bunlar azmış kimi keçir ağıl verməyə, taxdığın maskaya gülür və üstəlik də çıxarmağı məsləhət görür:

*– Ə, sən canın çıxar bunu. Mən taxmıram, niyə virus tutmuram? Hamısı oyundu. Camaat mitinqə yığılmasın deyə edirlər. Virus-mirus boş şeydi...*

Boş sənin kəllə sümüyünün içidir. Ay bədbəxt, əvvəl seçkiyə görə edirdilər, indi də mitinqə görəmi oldu?.. Bütün dünyanı yoluxma və ölüm halı sənin balaca ölkəndəki mitinqə görəmi bürüyüb? Bu analoqu olmayan məntiqinə heç hind filmləri də çata bilməz. Günah səndə deyil, günah səni maskasız küçədə istədiyin kimi gəzməyə göz yumanlardadır, kağız üzərindən fəaliyyətə keçə bilməyən qanun-qaydalardadır. Adamsan, adam balasısan, bambılı olma, özünü vətəndaş kimi apar. Bəlkə səndə öküz immuniteti var, uşaqlara, qocalara, xəstələrə yazığın gəlsin.

İndiki durumda əl tutaraq, öpüşərək görüşmək mədəniyyətsizliyin yekəsidir. İndi bir dəfə salamlaşmaq, bir öpüş bir neçə ailənin, hətta kəndin, şəhərin, bəzən ölkənin də faciəsi ola bilər.

# İKİNCİ TURDA "GÜRCÜ ARZUSU" QALİB GƏLİB

Noyabrın 21-də 17 majoritar dairədə baş tutan parlament seçkilərinin II turunda hakim Gürcü Arzusu Partiyası bütün dairələrdə böyük üstünlüklə qalib gəlib. Bu haqda Gürcüstanın Mərkəzi Seçki Komissiyası məlumat yayıb.

Seçkilərin hər iki turunun nəticələrinə görə, "Gürcü Arzusu" X çağırış parlamentində 150 mandatın 90-nı əldə edib. Digər 60 yer isə seçkilərin ilk mərhələsində iştirak edən 8 müxalifət partiyası arasında bölünüb.




Qeyd edək ki, Gürcüstan müxalifəti II turdan və deputat mandatlarından imtina edib.

# DÖVLƏT QULLUQÇULARININ 80 %-İ DİSTANT İŞ REJİMİNDƏ FƏALİYYƏT GÖSTƏRƏCƏK



Gürcüstanda noyabrın 28-dən fevralın 1-dək dövlət qulluqçularının 80 %-i distant iş rejimində fəaliyyət göstərəcək. Bu barədə baş nazir Giorgi Qaxaria bildirib.

O, bütün şirkətlərə əməkdaşlarını mümkün olduğu qədər uzaqdan iş rejiminə keçirməyi tövsiyə edib.

G.Qaxaria həmçinin növbəti iki ay müddətində 70 yaşdan yuxarı olan şəxsləri ciddi zərurət yaranmayacağı halda evdən çıxmamağa çağırıb.

# HÖKUMƏT ADMİNİSTRASİYASININ RƏHBƏRİ İSTEFA VERİB

Gürcüstanın hökumət administrasiyasının rəhbəri Natia Mezvrişvili vəzifəsindən istefa verib.

O, bu barədə feysbuk səhifəsində yazıb.

Natia Mezvrişvili 13 illik fəaliyyətdən sonra dövlət sektorundan ayrıldığını bildirib.

Qeyd edək ki, N.Mezvrişvili 2019-cu ilin sentyabrında hökumət administrasiyasının rəhbəri təyin olunub.



Həmin vaxtadək o, daxili işlər nazirinin müavini vəzifəsində çalışıb.

# YANVARDA ÖLKƏDƏ 12 GÜNLÜK TƏTİL OLACAQ



Pandemiyadan irəli gələrək Gürcüstanın Əmək Məcəlləsinə dəyişiklik edilib. Gürcüstan hökumətinin qüvvəyə minən 2020-ci il, 26 noyabr, 698 nömrəli sərəncamına əsasən, Gürcüstanda istirahət günlərinin sayı 12 gün artıb.

Yeni qaydaya əsasən, Gürcüstanda gələn ilin yanvarın 3-dən 15-dək bütün ölkə üzrə tətil elan olunacaq.

Tətil dövründə banklar, strateji əhəmiyyətli müəssisə və xidmətlər istisna olmaqla bütün dövlət və özəl müəssisələr fəaliyyət göstərməyəcəklər.

## TÜRKİYƏ GÜRCÜSTAN ORDUSUNA YENİ MADDİ-TEXNİKİ VASİTƏLƏR VERİB



Türkiyə Cümhuriyyəti Gürcüstanın Müdafiə Qüvvələrini yeni maddi-texniki vasitələrlə təchiz edib.

Bu barədə Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Gürcüstan ordusuna hərbi-mühəndislik və logistika imkanlarının artırılması məqsədilə 12 ədəd çoxfunksiyalı zirehli ekskavator-yükləyici və 35 ədəd avtobus təqdim olunub.

Yeni texnikaların alınması Gürcüstan və Türkiyə arasında ikitərəfli əməkdaşlıq çərçivəsində həyata keçirilib.

Rəsmi təqdimetmə mərasimində Gürcüstanın müdafiə naziri İrakli Qaribaşvili və Türkiyənin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri xanım Fatma Ceren Yazqan iştirak edib.

İ.Qaribaşvili Gürcüstanın Müdafiə Qüvvələrinə göstərilən dəstəyə görə səfirə minnətdarlığını bildirib.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN QURULMASINDAN 28 İL ÖTÜR

Azərbaycan və Gürcüstan arasında diplomatik əlaqələrin qurulmasından 28 il ötür.

İki ölkə arasında diplomatik əlaqələrin əsası 18 noyabr 1992-ci il tarixində qoyulub.

1995-ci ilin fevral ayında Bakıda Gürcüstanın, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycanın səfirlikləri açılıb.

Faiq Quliyev bu ilin avqustun 17-də Azərbaycanın Gürcüstandakı səfiri təyin olunub. O, oktyabrın 2-də etimadnaməsini Gürcüstan prezidentinə təqdim edib.

Gürcüstanın Azərbaycandakı səfiri isə Zurab Pataradzedir. O, bu vəzifəni 2018-ci ilin avqustundan yerinə yetirir.



Azərbaycanın Gürcüstanın Batumi şəhərindəki Baş Konsulluğu 2010-cu ildən etibarən fəaliyyət göstərir. Azərbaycanın bu şəhərdəki Baş konsulu Pərviz İsmayılzadədir.

Gürcüstanın Azərbaycanın Gəncə şəhərindəki Baş Konsulluğu isə 2013-cü ildə açılıb. Gürcüstanın bu şəhərdəki Baş konsulu Nikoloz İaşvilidir.

Tərəflər arasında imzalanan sənədlərin sayı 100-dən çoxdur.

*Mənbə: report.az*

## AVROPA İTTİFAQI GÜRCÜSTANA 100 MİLYON AVRO AYIRIB



Avropa İttifaqı makromaliyyə yardımı çərçivəsində Gürcüstana 100 milyon avro məbləğində vəsait ayırıb.

Məbləğin 95 milyon avrosu güzəştli kredit, 5 milyon avrosu isə qrantdır.

Yardımın böyük hissəsi 75 milyon avro olmaqla Gürcüstan hökumətinin COVID-19 pandemiyası ilə mübarizə proqramlarına yönəldiləcək.

## QAZAX NƏBİNİN MÜZƏFFƏR MƏKTUBU



Bizim Dəllər kəndində adamı bəzən tayfası ilə tanıyırlar. Kəndimizdəki tayfalardan biri də Qazaxlar (Qazaxlılar) tayfasıdır. Mən Qazax Mahmudu, Qazax Səmədi, Qazax Lətifi gördüm. Ədəlli-bədəlli, yerləri-yoxluqları tez görünən kişilər idilər. Hamısını saymaq imkan xaricindədir; torpaqları rahat, nurlu-işıqlı olsun!

İndi müzəffər məktubunu açıb sizə oxuduğum isə Qazax Nəbidir, yəni Nəbi əmi. Doğru-dürüst soyadı belədir: Nəbi Əhməd oğlu Məmmədov.

Nəbi əmi bizim məhlənin – gah Tala, gah da Qala məhləsi adlanan məhlənin, Ortalıqdan aşağı isə, sadəcə olaraq Yuxarı məhlə kimi tanınan yurdun-yuvanın adamıdır. Amma onunla həmdərd, həmsöhbət olmağım, yaxından tanımağım Qarabağla bağlıdır. Yəni son otuz ilin əhvalatlarıdır.

Kənd yerinin urvası, urvatı belədir: burada naxırçı da olursan, odunçu da. Hazırda yaşadığım Kazreti qəsəbəsində düz 24 il çalışdığım 2 saylı məktəb hər dəfə tətilə gedəndə, hər şənbə-bazar günləri kolyolu kəndə gəlirdik və ata-anamın qulluğunda dururduq, keçilərimizin, inəklərimizin sirəsinə gedirdik. Odun, zoğal, moruq mürəbbəsi tədarükü görürdük.

Nəbi əmi məni harada görürsə-görsün – Zoğallı yastanada, Göyrüşlü qayada, Vələslidə, Fal daşda, Qatar qayada, Ağ kilsədə – Qarabağı soruşurdu. Onda hələ çilik-çilik şüşələr üstündə yeriyən Şuşanı, qəfəsdə çırpınan Laçını xəbər alırdı. Məni "müəllim" deyə çağırırdı, hazırda məktəbdə işləməməyimə baxmayaraq indinin özündə də müraciəti bu müqəddəs sözlə başlayır: *müəllim* sözüylə.

Bir dəfə lap sidq-ürəkdən, sanki ən yaxın sirr yoldaşı kimi, məndən dərdli-dərdli, kövrələ-kövrələ, hətta hıçqırıqlar içində soruşdu:

– Müəllim, şəxsən sən Qarabağın qayıdacağına inanırsanmı?

– Əlbəttə, – dedim, – ay Nəbi əmi, axı səni də, məni də, "ayrılarmı könül candan"ı duyan, dərk edən başqalarını da elə bu inam yaşadır! Qarabağ Azərbaycanın da, bizim də canımızdır!

…orda ayla, illə, burda müxtəsər dillə…

Nəbi əmi indi 82 yaşın içindədir. Atası Əhməd babanın üzünü görməyib. Ata əlinin sığalını görməməkdən ağır dərdmi var bu dünyada? Atası davaya gedəndə cəmi yaş yarımda olub. Üç bacısını da – Gülsüm (uca Allahın rəhmətini diləyirik), Gülpəri və Qumaş – onu da rəhmətlik anası Fatma nənə böyüdüb (mən Fatma nənəni xatırlayıram). Nəbi əmi əlli ildən artıq sürücü işləyib, həmişə yollarda olub… Bilirəm ki, əgər indi gözləri zəif görməsəydi, özünü Qarabağın yollarında da sınayardı!

Hələ Şuşanın alınmadığı günlərin birində məndən xahiş elədi ki, olarsa, onun adından iki prezidentə – Azərbaycan və Türkiyə prezidentlərinə bir minnətdarlıq məktubu hazırlayım. İndiyədək heç vaxt bu məzmunda məktub-filan yazmamışdım. Amma indiyəcən bir kimsə də məndən belə ürəyinin dərin guşələrindən gələn bir xahiş eləməmişdi.

Və o dedi mən yazdım, o dedi mən yazdım. Nəbi əminin demək deyildi, danışmaq deyildi, nisgil, kədər yağışı, həsrət yağışı idi sanki. Elə bir əldən yağırdı. Sözlərində pafos yox idi, dəbdəbə, təntənə, sağlıq demək cəhdinin cizgiləri belə, yox idi. İlahi, Qarabağ dərdi talelərə necə dərin hopurmuş!..

Məhləmizdə, kəndimizdə, hətta cəmi Gürcüstanda onun kimi Qarabağ təəssübkeşi az görməsəm də, bu, tamam ayrı hava idi!

Sözarası tez-tez bir "müzəffər" sözü də işlədirdi. Amma Nəbi əmi bu sözü nədənsə bir "f" (fe) hərfi ilə deyirdi. Yəni "müzəffər" deyil, "müzəfər" şəklində. Ərəb əsilli müzəffər sözü – zəfər çalmış, qalib mənasını verdiyi halda, yenə də ərəb əsilli "müzəfər" – xörəyə dad, xoş iy vermək üçün ədviyyat olaraq qatılan zəfəranı (darçını və s.) nəzərdə tutur.

Təbii ki, mən Nəbi əminin xahişinə əməl elədim. Məktubları dostlarımın köməyi ilə öz ünvanlarına yolladım.

Amma çox dəbdəbəli olmasın deyə "müzəffər" sözünü tək bir yerdə işlətdim: məktubun bitdiyi "Yaşasın müzəffər Azərbaycan ordusu!" cümləsində.

Amma əsas məsələ Şuşa alınan günün səhərisi oldu. Nəbi əmi tezdən zəng elədi:

***– Şuşa gəldi – dedi, – ay müəllim, Şuşanı aldıq, atam gəldi!***

Onun ata həsrətinə yalnız Şuşa ilə son qoyula bilərmiş!

Mən göz yaşımı nəvəm Fidandan gizlətmək üçün üzümü dağlara – Əyriqar tərəflərə çevirdim.

Sən demə, günlərin bir günü elə bir an gəlirmiş ki, xalq da müzəffər olurmuş, prezident də, ordu da, hətta əl boyda məktub da!

Yadınızdadırmı, biz yeniyetməlik çağlarımızda yazdığımız məktublara bəzən "Şanlı məktub" adını verirdik.

P.S.

Bir neçə gün sonra sinif yoldaşım Yaqub kənddən zəng elədi ki, bəs deməzsənmi, başını orada islat, burada qırxdır. Tez gəl ki, Nəbi əminin dəmlətdirdiyi zəfəranlı plovun dadı qaçmasın…

Zəfəranlı plov, amma üstündən də Mənsum İbrahimovun ifasında bir "Qarabağ şikəstəsi"!

**İBRAHİMXƏLİL**

# TƏHSİL NAZİRLİYİ MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLARLA BAĞLI BƏYANAT YAYIB



Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi təcrübəçi və xüsusi müəllimlər üçün nəzərdə tutulmuş imtahanlar barədə bəyanat yayımlayıb.

Bəyanata əsasən, imtahanlar 2021-2022-ci tədris ili başlayana qədər keçiriləcək. Qeydiyyatdan keçə bilməyən təcrübəçi müəllimlərə isə qeydiyyat üçün imkan yaradılacaq. Baş müəllim statusu olanlar üçün də dəyişikliklər mövcuddur. Onlar cari tədris ilində statuslarını yalnız kənar müşahidə nəticəsində yüksəldə biləcəklər.

**"Mövcud epidemioloji vəziyyəti və Səhiyyə Nazirliyinin tövsiyələrini nəzərə alaraq, müəllimlər və xüsusi müəllimlər üçün imtahan 2021-2022-ci tədris ili başlayana qədər keçiriləcək. Bundan irəli gələrək, Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin təşəbbüsü ilə müəllimlik fəaliyyətinə başlamaq, peşə inkişafı və karyerada irəliləmə sxeminə dəyişikliklər edilib.**

**Dəyişiklik (qeyri-gürcü dilli məktəblərin/sektorların təcrübəçi müəllimlərindən başqa) 2020-ci ilin 31 yanvar tarixinə qədər ümumtəhsil müəssisələrində dərs deyən və 2020-ci ilin 1 fevral tarixindən 30 aprel tarixinə qədər müəllimlər imtahanına qeydiyyat olmuş təcrübəçi müəllimlərə aid olacaq. Onlara 2021-2022-ci tədris ili başlayana qədər müəllim statuslarını artırmaq hüququ verilir.**

**Bundan əlavə, 2020-ci ilin 31 yanvar tarixinə qədər 15 kredit toplamış (həmçinin, fənn yaxud ixtisas kompetensiyasını qismən təsdiqləmiş olan) və 2020-ci ilin 30 aprel tarixinə qədər müəllimlər imtahanına qeydiyyat ola bilməyən müəllimlərə qeydiyyat hüququ və topladıqları 15 kredit balı 19 kredit bala qədər doldurmaq hüququ verilir.**

**Dəyişikliklər baş müəllimlərə də aiddir. 2020-2021-ci tədris ili ərzində onlara yalnız kənar müşahidədən keçmək hüququ veriləcək (birbaşa və eləcə də distant qaydada). 2020-ci ilin 31 dekabr tarixinə qədər kənar müşahidədən uğurla keçdikdə onlara 2021-ci ilin yanvarından, 2021-ci ilin 15 iyun tarixinə qədər uğurla keçdikdə isə 2021-ci ilin 30 sentyabr tarixinə qədər aparıcı müəllim statusu veriləcək. Həmçinin qeyd edilməlidir ki, əgər baş müəllim 2020-2021-ci ilin II semestri başlayana qədər doktorluq dərəcəsi qazanarsa ona aparıcı müəllim statusu veriləcək"**, - bəyanatda deyilir.

*Mənbə: edu.aris.ge*

## 2019-2020-Cİ İLDƏ 8 266 ŞAGİRD MƏKTƏBİ TƏRK EDİB

**2019-2020-ci tədris ili ərzində 8 266 şagird təhsilini dayandırıb. Ancaq formal təhsil prosesinə qoşulmamış şagirdlər haqda dəqiq məlumat yoxdur.**

**Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin "etaloni.ge"yə verdiyi statistik göstəricilərdən görünür ki, ötən tədris ili ərzində təhsili dayandırmaqla bağlı ən yüksək göstərici 10-cu sinifdə qeydə alınıb.**

*Ümumtəhsil məktəblərində 2019-2020-ci tədris ili ərzində və il başa çatdıqdan sonra yeni tədris ilinin başlamasına qədər təhsilini dayandıran şagirdlərin sayı (istisna, xaric edilmə, statusun dayandırılması) belədir:*

| *Sinif* | *Şagirdlərin sayı* |
|---|---|
| 1 | 238 |
| 2 | 452 |
| 3 | 363 |
| 4 | 350 |
| 5 | 357 |
| 6 | 348 |
| 7 | 390 |
| 8 | 423 |
| 9 | 553 |
| 10 | 3486 |
| 11 | 734 |
| 12 | 572 |
| *Cəm* | 8266 |

Məktəbi tərk edənlərdən əlavə, həmçinin formal təhsil prosesinə qoşulmamış məktəbyaşlı uşaqların sayı ilə maraqlandıq. Ancaq məlum olduğu kimi, sistemdə bu məlumat yoxdur.

*"Təhsilin İdarəsi üzrə Məlumat Sistemində indiki mərhələdə formal təhsilə qoşulmamış şagirdlər haqda tam və dəqiq məlumat yoxdur. Qeyd olunan məsələ ölkədəki əhali və miqrasiya problemi ilə əlaqədardır"*, - qurumun verdiyi məlumatda qeyd olunur.

Qeyd edək ki, məktəbi tərk edənlərlə bağlı göstərici ötən illərdə daha yüksək idi. Milli Statistika İdarəsindən verilmiş məlumatda qeyd olunub ki, 2018-2019-cu tədris ili ərzində, ümumilikdə 12 049, 2017-2018-ci illərdə isə 12 298 şagird məktəbi tərk edib.

Məsələ ilə bağlı hər il Ombudsman da danışır. 2019-cu ilin hesabatında yazıldığına görə, məsələ bu günə qədər kəskin və həllolunmaz problem olaraq qalır:

*"İllər ərzində şagirdlərin məktəbi tərk etməklə bağlı göstərici yüksək olub. Əsasən onun səbəblərinin aşkarlanması, məktəbi tərk etmənin aradan qaldırılması məsələləri xüsusilə problemlidir. Xalq Müdafiəçisi öz hesabatında bu problemi, həmçinin erkən evlilik, uşaq kasıblığı və əməyə görə təhsil hüququnun pozulması tendensiyasını dəfələrlə qeyd edib. Ancaq problem hələ də həll olunmayıb.*

*Məktəblərin müvafiq əsasları qeyd etməklə təhsili tərk edənlərin statistikası haqda vahid mexanizmi yoxdur. Nazirlik tərəfindən qeyd edilmiş əsasların bir qismi ümumidir, biri digərini örtür və real mənzərəni təsvir etmir"*, - hesabatda qeyd olunub.

## MÜƏLLİMLƏR ƏMƏK HAQLARININ GECİKDİRİLMƏSİNƏ GÖRƏ ƏLAVƏ PUL ALMALIDIRLAR



Məktəb direktoru və müəllim arasında bağlanmış əmək müqaviləsinin məcburi şərtlər qaydasında məktəbin hansı hallarda müəllimə əlavə pul ödəməli olduğu qeyd olunub.

Təhsil, elm, mədəniyyət və idman nazirinin sərəncamına əsasən, məktəb əmək haqqının hər gecikdirilmiş gününə görə müəllimə gecikdirilmiş məbləğin 0,07 faizini ödəməlidir.

Müəllimin əmək haqqı məktəbin tarifinə əsasən, saatların sayına və statusuna görə ödənəcək.

*Mənbə: etaloni.ge*

## MÜƏLLİMİN ƏMƏK MÜQAVİLƏSİ NƏ ZAMAN DAYANDIRILA BİLƏR?




Müəllimlik fəaliyyətinə başlamaq və dayandırmaq haqqında qaydalarda məktəbin müəllimlə müqaviləni hansı səbəblərə görə dayandıra biləcəyi ətraflı şəkildə qeyd olunub. Səbəblər arasında müəllimin keçmədiyi (buraxdığı) dərslərin sayı da var.

Qanuna görə, əgər məktəb ilə müəllim arasında bağlanmış əmək müqaviləsində əlavə heç nə nəzərdə tutulmayıbsa, müəllimin əmək qabiliyyətini uzun müddətə itirməsi, əmək qabiliyyətini itirmə müddətinin 40 gündən, yaxud 6 ay ərzində 60 gündən artıq olması halında və müəllim Gürcüstanın Əmək Məcəlləsi ilə nəzərdə tutulmuş məzuniyyətdən istifadə edibsə ümumtəhsil müəssisəsi ilə müəllim arasında əmək müqaviləsi dayandırıla bilər.

**Müəllimlə bağlanmış əmək müqaviləsi aşağıdakı hallarda dayandırıla bilər:**

a) Müəllimin statusu dayandırılarsa;

b) Müqavilə şərtləri pozularsa, təhsil fəaliyyətinə uyğun olmayan hərəkətlər törədilərsə, yaxud qanunvericiliklə nəzərdə tutulmuş qaydaya görə bacarıqsızlığı təsiqlənərsə;

c) Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda.

Müəllimin öz təşəbbüsü ilə müqaviləsinin dayandırılması halında isə müəllim bu haqda məktəbə 30 gün əvvəl yazılı surətdə bildirməlidir. Yalnız təxirəsalınmaz tibbi, yaxud ailə şəraitinə görə olması istisnadır.

*Mənbə: etaloni.ge*

***Səhifəni hazırladı: Aynurə ƏLİYEVA***

AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ

# "GELATİ SİMA" KAFESİNİN QOCALARI

Mən yenə böyük monitora bənzəyən şüşə vitrinlərin arxasından küçədə baş verənlərə gözümün ucuyla da olsa diqqət kəsilirəm. Bu gün "gelati Sima" kafesi ilə üzbəüz mövqedəyəm. İstər-istəməz kafedə baş verənlər, gəlib-gedən müştərilər gözümə sataşır.

Məkanın müştərilərinin çoxu qocalardır. O yaşda qocalar ki, biz belə qocalarımızı gözdən uzaq, könüldən iraq tutmaq istəyirik. Az qala onları evə qapadırıq. Onların hərəkətlərindən utanırıq. Yalan demirəm ki? Yalanım varsa, deyin. İnsan qocaldıqca onun bir çox keyfiyyəti – görməsi, eşitməsi, dadbilməsi və s. zəifləyir, hətta tamamilə itir. Əl-ayağı əsir, ağlı-huşu azalır. Qocanın gözünün eynəkli, əlinin əsalı, dişinin protez olmasında gizlədiləcək, utanılacaq bir şey olmamalıdır. Bu təbii bir şey.

Bizsə almanlardan fərqli olaraq, qocalığın bu təbii halını gizləmək istəyirik. Niyə? Bütün bunlar dünyanın hər yerində qocalığın əlamətləri deyilmi? Bunu Allah da görür, bəndə də.

Allah günaha yazmasın, çoxunun ayaq üstə qırxı çıxmış kimi. Sən bir bu qəbirdən xortlamışa bax. Sürünsə də, özünü çıxdaş hesab etmir. Əlini əsa-arabasının dəstəyinə yetirən kimi çarşıya çıxmaq istəyir. (Bu arabaya sahib olan qocanın kimsənin yardımına ehtiyacı da qalmır. Araba onu istədiyi yerə sürüyür. Mötərizədəki ikinci cümlənin xəbərinə görə günaha batdığımın fərqindəyəm). Qocanın niyyəti kafedə əyləşib gün keçirmək, tay-tuşlarla mırt vurmaq, ömrünün qürub çağını mənalı etməkdir. Bunun üçün də hər gün 5-10 avro pulun başından keçir. Nə böyük şeydir ki? Dəryadan bir damla misalı. Aldığı təqaüd onun ölümündən sonrasına da yetər. Bizim pensiyaçıların aldığı pulunsa başını kəsəndə canı çıxır. Bəzən alman qocalarının gündəlik çarşı seyri xərclədikləri məbləğ postsovet məkanında bir ailənin həftəlik xərcindən çox olur. Bəs nə etsinlər? Pulu gorlarına ha aparmayacaqlar? Allaha ağır getməsin, onsuz da bugünlük, sabahlıqdırlar. Koronovirus zəhrimar da bunlara bir yağı kəsilib. Ona görə qoca qırandır deyirlər də.

Bu andırın firinə-fiqurasına fikir verirsənmi? Makiyajı, köhnə deyimlə, ənlik-kirşanı usta əlindən çıxmışa bənzəyir. Yüzdə yüz səhər-səhər yolunu gözəllik salonundan salıb. Bəlkə də özünün əməlidir? Babalı öz boynuna. Elə bil qurulan, açarlı gəlincikdir, evdə açarını burub, küçəyə buraxıblar.

Göthe, Hegel, Kant, Feyerbax, Heyne, Şopenhauer, Fixte, Şiller, Bethoven, Bax kimi dahilərin – birdimi, beşdimi sayıb qurtarasan – vətənidir Almaniya. Bu dahilərin hərəsindən bir damcı götürmək yetərlidir ki, özünü bir insan kimi kamilləşdirəsən. Mən əminliklə deyə bilərəm ki, kafelərə toplaşan qocalar mütləq bu dahilərindən nələrisə əxz ediblər, yeri gəldikcə onlardan nəsə bir fikri söhbətlərinin gözünə qatırlar.

Bunların çoxu, qoca almanları deyirəm, Hitleri taxtda, ondan sonra gələnləri qundaqda görənlərdəndir. Hitleri gördüklərini indi əziz xatirə kimi tanış-bilişlərinə, oğul-uşaqlarına danışa da bilərlər. Səksəni-doxsanı haqladıqlarını yerişləri-duruşları da bəlli edir. Bu məntiqlə onların Hitlerin hakimiyyətdə olduğu dövrdə doğulduqlarını güman edirəm. Bunu mən özümdən düzüb qoşmuram, gördüklərimdən çıxış edib, söyləyirəm.

Uşaqlıqları savaş dövrünə düşmüş bu ixtiyarların çoxu ola bilsin ki, nasist partiyasının gənclər təşkilatının üzvü də olub. Həvəsə düşüb Hitlerin "Mayn kampf"ını əzbər də bilirmişlər. Zaman yaddaşlarını zəiflətsə də, beyinlərində o kitabdan nələrisə qoruyub saxlaya bildikləri şəksizdir.

Müttəfiq qoşunların əsgərlərinin onların yaxınlarını – analarını, xalalarını, bəlkə elə özlərini də necə zorladıqlarını xatırlamaya bilməzlər. Məğlub almanların məzlumluğunu da, başıaşağılığını da görmüş olmalıdırlar. Bölünmüşlük kompleksindən necə qurtulmalarını, xarabalığa dönmüş ölkələrinin necə şənləndirildiyini yaxşı xatırlamalıdırlar. Nədən ki, bütün bunlar onların cavanlığında, gözlərinin qarşısında baş verənlərdir. Almaniyanın müharibə xarabalığının altından silkinib çıxmasında onların hər birinin az və ya çox əməyi də olmalıdır. Sizə zarafat gəlməsin, iki müharibədə yeniləmək. Və bu məğlubiyyətdən sonra ayağa qalxmaq, heç nə olmamış kimi yoluna davam etmək. Bir neçə on ildən sonra isə qalib ədası ilə dünyaya alman möcüzəsi təqdim etmək.

Kreativliklərimi xarabalıqları abadlaşdırdı? Yoxsa praqmatik düşüncələri? Bəlkə ari irqinə məxsus olmalarına inam onları ayağa qaldırdı? Və ya dahilərindən ilhamlandılar? Bəlkə kilsə yol göstərdi? Ya alman qənaətcilliyi onlara yardımçı oldu? Burada alman dəqiqliyinin payı da olmalıdır, məncə. Hər nədirsə bu gün alman xalqı idmandan tutmuş siyasətə qədər, mədəniyyətdən iqtisadiyyatadək istənilən sahədə söz sahibidir. İstənilən mal və xidmətin alman keyfiyyəti nümunədir. Avropa standartı deyilənin dizaynerlərinin önündə gedənlərdən biri də iki dünya müharibəsindən böyük itkilər bahasına çıxmış Almaniyadır. Qısa bir



zaman kəsiyində bu itkilərin yerini doldurmaq asandırmı? Bu gün Almaniya təkcə Avropanın deyil, dünyanın yeni şəkil almasında əsas söz sahibinə çevrilməyibmi? Bunların heç birinin şişirtmə olmadığı da bəlli.

Almaniyada iş saat kimi qurulub. Təmiz, pullu işlər almanlar üçündür. Onlar standartı müəyyənləşdirir, layihələndirir, gəlmələr də bütün kirli işləri həyata keçirirlər. Lazım olandan artıq, iş axtaran gəlmələr isə Almaniyanın küçələrində dolaşmaqdadırlar. Bir ucdan da axışıb gəlməkdədirlər. Təkcə Almaniyamı?

Bunları alman qocalarının məzə çırtlamalarını seyr edə-edə düşünürəm. Və ortada bu qocaların kef etmələrinə mane olacaq bir şeyin olmadığını fikrimdən keçirirəm.

...Şükür, bu mövzunun da ağız-burununu toparlayıb, ölüm-zülüm başını günə gətirdim...

***Afiq MUXTAROĞLU***
Almaniya

# DÜNYANI FANTİNANIN AHI TUTUB



*"Mənim balaca qızım var, xahiş edirəm məni tutmayın, cənab polis. Məni tutsanız, qızıma kim baxacaq. Xahiş edirəm!"* – Fantinanın dizi üstünə yıxılıb şivənli ağlamağı oxucunu sarsıntıya bürüyür. *"Mən neçə ildir namusnan işləyirdim, cənab polis, amma məni işdən atdılar, balaca qızım var, onu saxlamaq üçün hər şeyimi satdım, özümü satdım, məni buraxın, mənim körpəm var"* – Məzlum Fantinanın ağlamaqdan kəsilən cümlələri, nalə olub oxucunun boğazına düyünlər bağlayır.

Müəllifi dahi Viktor Hüqo olan, ədəbiyyatın şah əsərlərindən biri sayılan "Səfillər" kitabının tragik personajıdır Fantina. O fermada qulluqçu, sonra isə dərzi işləyirdi. Təhsilsiz, utancaq, mülayim, həyat dolu qız idi. Xariqə gözəlliyi isə ona göz qamaşdıran ağ dişləri və "qızıldan olan" saçları verirdi.

Fantina varlı kişinin oğlu Tolomyes adlı oğlana rast gəlir, ona saf sevgiylə aşiq olub xəyallar qurur. Tolomyes ənənəvi Fransanın qızğın müharibə vaxtında qızı hamilə qoyub atır. Fantina uşağı həyata gətirir, qızın çiyinləri qaldıra biləcək yükdürmü? İşləməyə başlayır, qışda işdən qovulur. Sata biləcək hər şeyini – saçlarına kimi satır, sonunda sıra özünü satmağına gəlir. Nə etsin, anadı, körpəsi var. Övladı olan qadına ana, bədənini satan qadına isə fahişə deyilir. Bəs bədənini ana olduğuna görə satan qadına nə deyək?

Ona baxmayaraq, Viktor Hüqo Fantinanın mənəvi yüksəkliyini qoruyub və fahişə obrazında ananın müqəddəsliyini saxlayıb. Gözəlliyini gənc yaşında itirdi, artıq elə gözəl gülmürdü, "qızıl" saçlarının teli üzünə düşüb yanağına sığal çəkmirdi. Hər onun ağlamasında xalqa kini, dünyaya, ilk öncə isə özünə qarşı incikliyi hiss olunurdu. Fantina elə gənc yaşında əlacsızlığından, ənənəvi Fransanın mentalitetindən, damğasından gözü uşağında qalıb ölür. Qadının ən böyük cəhənnəmi övladına ata olmaq məcburiyyətində qalmağıdır. Atalığa çata bilmir, analığından da yarımçıq qalır. Düşünün, kimdir əxlaqsız, uşağı üçün canından keçən anamı, yoxsa övladının qayğısına qalmayan məsuliyyətsiz atamı?!

Viktor Hüqonun Fantinanın taleyini müharibə dönəmində yazmağı təsadüf olmaz. Müharibə sadəcə torpağı alıb, yaxud uduzmaq deyil, o, həm də sökülmüş ailələr, müharibənin viranəsi altında qalmış qadınların, uşaqların ağrısıdır. Bu, yazıçı Nuqzar Şataidzenin 1993-cü ildə Abxaziya faciəsinə həsr etmiş hekayəsində aydın əks olunur. Cavan gəlinin əri müharibəyə gedir, xəbər gəlmir. Ömür boyu evində oturan qadın qəfildən oğlan uşağı ilə küçədə qalır. İşi, peşəsi olmayan bu ana restorana ofisiant düzəlir. Ərindən qalan yeganə üzüyünü əlinə alıb tez-tez ona baxıb, dağılmış ailəsini, gəlməyən həyat yoldaşının üzünü görür. Çox çəkmir ki, qadın pis yola düşür. Oğlu isə uşaq yaşında uyuşdurucuya qurşanır. Bunlar kimi, bunlara bənzər milyonlarla bədbəxt, yarımçıq qalmış sevinc, təbəssümlər, həyatlar...

Kasıbçılıq, aclıq, yiyəsizlik, çarəsizlik kimin qürurunu, "onurğasını" qırmır ki?

Dünya çox əsrlər dəyişib-görüb, elə əzəldən səhv təməl üstündə tikilə-tikilə gedir. Kimisi yaşayır, kimisi isə sağ qalmaq çabasında-mübarizəsindədir. Hüqonun qələmi ilə cəmiyyət tərəfindən səfil edilmiş Fantinanın fəğanını hamı eşitdi, bizə isə onu eləcə başa düşmək qalır. Bəlkə ondasa ruhu nur içində yata.

Əxlaq uşaqlığımızdan hamımıza həkk olunan dəyərdir. Heç bir qadın bilə-bilə ki, istifadə olunur, o dəyərdən öz xoşluğuyla vaz keçmir. Sürünə-sürünə, ölə-ölə imtina edir özündən. Qadını pis yola salan təhsilsizlik, yiyəsizlik və ən əsası kişidir.

***Şənhəyat SADİQ***

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## AMKROBA (HƏMKARLIQ)



*(əvvəli ötən sayda)*

Amkroba qaraçoxelilərin kultu idi. Amkroba bohemanın onsuz da qədim Tiflisin pozulmuş simasının tam halına gələ bilinmədiyi bir qırığıdır.

Amkrobanın ustabaşına qədimdə böyük təsiri vardı. O, seçilən kəndxuda olaraq daim köhnəlməyən nüfuza malik idi. Ustabaşının vəzifəsi, qeyd etmək lazımdır ki, amkrobanın həyatında qayda-qanunun pozulmaması üçün şifahi müşahidə və nəzarətdən ibarət idi. Şifahi ona görə deyirəm ki, köhnə vaxtlar həmkarın əksər hissəsi, şəhər danışığından istifadə etsək, "kitab üzü görməmişdi". Onların hər şeyi anlamaq istedadı, müşahidə etmək qabiliyyəti var idi və yaddaşın sonsuz ehtiyatına malik idi. Haqq-hesab üçün öz əlamətlərindən istifadə edirdilər: çarpaz xətt, əyri xətt, düz xətt, yumru xətt, iki xətt və bu xətt üzərində bir neçə qrafiq xətt. Bax, bu onların haqq-hesab dəftəri, "buxhalteriyası" idi ki, bununla da onlar manatları, tümənləri və sairi qeyd edirdilər.

Ustabaşının hamı xətrini istəyirdi. Əgər hardasa ər-arvad arasında bir niyyətsizlik baş verərdisə, ustabaşı ortaya çıxar və bu ixtilafı "barış" yolu ilə sona verərdi. Əgər qonşular "alış-veriş" zəminində dalaşsaydılar, ustabaşını ismarlayardılar və o da gələr, baş vermiş davanı əlüstü qaydaya salardı. Əgər hansısa tərəf tərslik edərdisə və ustabaşının çıxartdığı qərara tabe olmayırdısa, günahkarın cəzalanması üçün "asan yol" mövcud idi, belə ki, bu "asan yol"u bağlayırdılar, ona boykot elan edirdilər.

Həmkar vəzifəsi eləcə də dünyasını dəyişmiş yoldaşlarının dəfnini təşkil etməkdən ibarət idi. Hansı həmkarın üzvü vəfat edərdisə, həmin peşənin dükanları mərhuma hörmət əlaməti olaraq bağlanırdı və hamı mərhumun ailəsinə toplaşırdı, hüzr yerində iştirak edərdilər. Əgər dünyasını dəyişən varlılar çevrəsinə daxil idisə, həmkarın üzvləri dəfn mərasimində iştirak etsinlər deyə mərhumun sahibləri həmkarın kassasının xeyrinə bir növ məbləğ ödəyirdilər (Барон Гакстгаузен, "Закавказкий край", 1857-ci il, I hissə, səh. 108). Bu məbləğ iştirak edənlər arasında paylanılırdı və onlar da dəfndən sonra mərhumun ruhunun yad edilməsi üçün sağlıq deməyə hansısa meyxanaya gedirdilər.

Həmkarın nizamnaməsində dula-yetimə baxılması, yiyəlik edilməsi qeyd olunmuşdur. Deməк lazımdır ki, bu nizamnaməyə maddə-maddə əməl edirdilər. Şərqli adamı həmişə özünün son anları və layiqli dəfni barəsində fikir narahat edir. "Layiqli dəfn" – bu onun son istəyidir. Tiflis qaraçoxelisinin, Tiflis həmkarının üzvünün heç bir kapitalı, dövriyyəyə buraxmaq üçün heç cür başqa şeyi yox idi. O, bir həftədə qazandığını bir gündə yeyirdi. Gələcəyin qayğısına qalmırdı. Ölürdü və özündən sonra var-dövlət əvəzinə ailəsinə iş alətlərini və ya da sağ əli elə balaca vaxtlarından-ca işə öyrəşən övladını qoyurdu.

Əlbəttə, istisna olunanlar da var idi, onların dəfni minnətli olmasın deyə "qara gün üçün" qəpik-quruşlar yığırdılar, qaraçoxeli isə öz "dəfn kassası"nı həmişə belinə bağlamışdı: "Gümüş kəmər" (Qədimlərdə kargah mücrü qoymalı idi ki, burda da illər ərzində gümüş kəmərin alınması üçün məbləğ yığılırdı).



Mən qumarın ehtiraslı oyunçusunu görmüşəm ki, qumarda hər şeyi uduzub – pulu, papağı, kürkü, arxalığı, çəkmələri, elə şalvarını da və gümüş kəmərə əl yetirməyib. O, alt paltarının üstündən bağlanmış gümüş kəmərlə evinə qayıdıb. Əgər kimsə bu gümüş kəməri oğurlasaydı və ya zorla satdırsaydı, onda onun hirsinin həddi-hüdudu olmazdı. Bu cür kişi qəbir yanında danışmağa başlamalı idi. Bundan öncə qəzetdə oxudum ki, çəkməçi Mixeil Veliaşvili öz şəyirdi Georgi Metepşivilinin bədənini 65 yerdən kəsmişdir. Məsələ belə olub: Çəkməçi Veliaşvili öz şəyirdinə məvacib vermirmiş. Şəyirdi məhkəməyə şikayət edir. Məhkəmə qərar çıxarır ki, çəkməçi Veliaşvili şəyirdi Metepşişviliyə itirdiyi pulu verməlidir və çəkməçinin başqa məbləği olmadığından öz gümüş kəmərini satmış və keçmiş şəyirdini razı salmışdır. Zaman keçdi, çəkməçi Veliaşvili hər halda ona kəfən pulu olan gümüş kəmərini satdırdıqları fikirlə barışa bilmirdi. Həmişə acıqlı xasiyyətdə idi. Və, budur, bir gün çəkməçi vaxt tapdı, özünün keçmiş şəyirdini güddü və bebutla ona 65 yara yetirdi ("Kommunist" qəzeti, 1927-ci il, №133).

Qaraçoxelinin öz ənənəsi var idi. O, təkəbbürlü olaraq həyatın keşməkeşli yolunda gözüaçıqlıqla boylanır, ölüm ayağında isə onun cəsədinin minnətli basdırılmaması barədə düşünürdü.

VI Vaxtanq da öz qanunlarında dəfnə böyük diqqət yetirirdi: "Kilsədən kənarda məzarın sahibinin dəyərini verməsi düzgündür. Buna görə də ehtiyacı olan insana halallıqla verilməmiş məzarın xeyiri yoxdur" (Bax. Vaxtanqın qanunları, maddə 218). Həmkarın üzvü isə bu cür qayğıdan azad idi. O, elə sağlığındaca bilirdi ki, ölümdən sonra həmkar nizamnaməsinin qüvvəsi ilə yoldaşları onun dəfnini minnətli etmirdilər, layiqincə dəfn edirdilər və onun ailəsinin üzvləri də yiyəsiz qalmırdılar. Vəba və qarayara zamanı Tiflisin sakinləri şəhərdən başı alovlu qaçanda, öz ölülərini və xəstələrini Allahın ümidinə qoyanda həmkarın üzvləri şəhərdə qalıb dünyasını dəyişənlərə sahiblik etməyi özlərinin müqəddəs vəzifəsi olaraq hesab edirdilər.

Nəinki bircə çətinlik zamanı, elə şənlik zamanı da həmkarlar həqiqi yoldaşlığı bilirdilər. Həmkarın üzvləri ailənin yetim qalan uşaqlarına daim qayğı ilə yanaşırdılar. Bir nadir hadisəni qeyd etmək lazımdır: Dul qadına hər gün azuqəsi göndərilirdi və heç kim bilmirdi ki, onu kim göndərir. Bu, mərhum ailə sahibinin də həmkar üzvünün və ya göndərən qaraçoxelinin şəxsən dostu hesab edilən həmin ailəyə xəlvəti yardımı idi.

Dul qadının uşaqları böyüyəndə, oğlanları emalatxanalara təhvil verirdilər, yaşlı qadınlara isə həmkarın daxılından cehiz hazırlamaq üçün məbləğ verilirdi. Bu pul ilə ana öz qızına adətlə qaydaya salınmış cehiz tikirdi.

Bu cehiz sözü indi bizim üçün yersiz və gülüş doğurucu ola bilər, amma o dövrkü gəlin üçün "cehiz siyahısı" gələcək xoşbəxtliyin yaradılması üçün ilk məhək daşı idi.

Monoqrafiyamızın illüstrasiyası və o dövrü xarakterizə etmək üçün birazdan bu cehiz siyahısı ilə oxucularımızı tanış edəcəyik.

*(davamı gələn sayda)*

***Gürcü dilindən tərcümə edən: Mirzə MƏMMƏDOĞLU***



# CƏNUBİ QAFQAZDA YENİ İQTİSADİ TARAZLIQ



2020-ci il nəinki təkcə regionumuz üçün, həmçinin bütün dünya ölkələri üçün də ən ağır illərdən biri kimi yadda qaldı. XXI əsrin bu ilk yarısında dünya iqtisadiyyatı bir neçə dəfə böhranlarla üzləşdi. Bunlar arasında indiyə kimi ən fəsadlısı 2007-2008-ci illərdə baş vermiş maliyyə böhranı hesab olunurdu. Ancaq 2020-ci ildəki virus səbəbindən yaranan böhran iqtisadi baxımdan bütün zamanların təsir dairəsi ən geniş olan böhranı kimi yadda qalacağına heç şübhə yoxdur. Bu böhran nəticəsində müəyyən dərəcədə iqtisadi balans əldə etmiş dünya iqtisadiyyatı pandemiyanın tüğyan etməsiylə tarazlığını itirməyə başladı. Dünyanın öz iqtisadi gücüylə sözünü deyən ölkələri bu tarazlığı bərpa edib əvvəlki vəziyyətə qaytarmağa cəhd etsələr də, günbəgün artan yoluxma və ölüm halları ictimaiyyətin, eləcə də bütün qurumların fəaliyyətini müəyyən çərçivə daxilində məhdudlaşdırırdı. Bu isə öz növbəsində iqtisadiyyatın yenidən dirçəlməsi üçün görüləcək işlərin də ləngiməsinə səbəb oldu. Təbii ki, bu təlatümlü böhran regiondan da yan keçmədi. Cənubi Qafqaz ölkələri mövcud vəziyyətlə mübarizə aparmaq üçün böyük vəsaitlər ayırmağa və təcili qabaqlayıcı tədbirlər görməyə başladılar. Cari ilin əvvəlində Azərbaycan, Gürcüstan və Ermənistan daha az yoluxma hallarıyla az riskli ölkələr siyahısında idisə, ilin sonuna olan göstəricilər hər bir ölkə üçün yüz mindən çox yoluxma halını göstərir.

Pandemiya dövründən əvvəl onsuz da ağır vəziyyətdə olan region ölkələri ilin ikinci yarısında daha da ağırlaşan siyasi-hərbi qarşıqlıqlarla üzləşdi və nəticədə yeni iqtisadi münasibətlərin – yeni növ tarazlığın qurulmasına ehtiyac yarandı. Yeni iqtisadi tarazlıq regionda işğal faktının aradan qaldırılması, qarşılıqlı sərmayə yatırılmasını, qarşılıqlı güzəşt və əməkdaşlıq kimi mühüm məsələləri həyata keçirərək region ölkələrinin hərtərəfli əməkdaşlıq imkanlarının daha da genişləndirilməsi gözlənilir.

Düzdür, bu məsələlərin qısa müddətdə həllini reallaşdırmaq asan olmayacaqdır. Ancaq 2020-ci il pandemiya böhranı region ölkələrini qarşılıqlı yardımlaşmağa və bu böhran vəziyyətindən tez bir zamanda birgə çıxmağa sövq elədi.

Regionumuzdan ticarət və nəqliyyat yollarının keçməsi, neft və qaz kəmərlərinin yerləşməsi mühüm strateji amillərdir. Bu amillər region ölkələrindən əlavə bu lahiyələrə vəsait və sərmayə yatıran xarici ölkələrin də tez bir zamanda Cənubi Qafqazda davamlı sabitliyin və tarazlığın yaranması istəyini gücləndirir. İstərsə qərb ölkələri, istərsə də, şərq nəhəngi Çin də regionda yaradılacaq yeni iqtisadi tarazlığın tərəfdarlarıdırlar və regionumuza xüsusi həssaslıqla yanaşırlar. Sadəcə pandemiya dövründə bu ölkələrdən göndərilən müxtəlif tipli tibbi yardım ləvazimatları bunun bariz nümunəsidir.

Qarşıdakı illərdə regionumuzda uzunmüddətli və sabit inkişaf əldə etmək üçün hər bir region ölkəsinin iştirakını təmin edəcək yeni iqtisadi tarazlığın formalaşması artıq şərt halını almaqdadır və aparıcı ölkələrin də maraq dairəsindədir. Ümid edək ki, Cənubi Qafqaz ölkələri ümumi rifah naminə buna nail ola biləcəklər.

***Səlahəddin PİRİYEV***

# DİN MƏFHUMU

İnsanlıq tarixi qədər qədim bir tarixə sahib olan din insan həyatında həm öz təsirini, həm də aktuallığını daima qorumuşdur. Bəşəriyyətin necə yaranması sualı insanlarda fərqli düşüncələrin formalaşmasına yol açmışdır. Kimisi kainatın varlığını həyatın dörd ünsürü olan od, su, hava və torpağa bağlamış, kimisi hər şeyin öz-özünə meydana gəldiyinə, kimisi də yaradıcı qüvvənin (Allahın) olduğuna inanmışdır. Bu fərqli düşüncələrin nəticəsi olaraq bir sıra inanclar meydana gəlmişdir. 2019-cu ilin statistikasına görə, dünyada 4300 din vardır. Bu dinləri ilahi dinlər, ilahi olmayan dinlər, tək tanrılı dinlər, çox tanrılı dinlər, kitabı olan dinlər, kitabı olmayan dinlər, peyğəmbəri olan dinlər, peyğəmbəri olmayan dinlər və s. kimi qruplaşdıra bilərik. Dinin bu cür çoxşaxəli olmasının səbəbi insanın daima bir inanca ehtiyac duymasının nəticəsidir. Çünki düşüncənin qavramadığı "biz niyə varıq?" "dünya niyə var?" kimi fövqəladə suallara insanın dolğun bir cavabı olmadığına görə bu kimi suallara din cavab verir – Allah belə istədi, Allahın təqdiri belədir və s.

"Din" kəlməsi ərəb dilindən gəlmişdir. Dilimizdə din mənası ilə yanaşı adət-ənənə, itaət, mükafat, cəza, ibadət kimi başqa mənaları da vardır. Dinin termin olaraq tərifinə gəlincə isə, bu dərəcədə fərqli quruluşa sahib dinlər üçün hamısının xüsusiyyətlərini əhatə edəcək ümumi bir tərif demək çətindir. Buna baxmayaraq, dinin səksəndən çox tərifi olduğunu deyənlər var. Din haqqında bu qədər fərqli fikirlərin dilə gətirilməsi isə dinin nə dərəcədə geniş bir məfhum olmasından xəbər verir. Bunlardan bir neçəsini gözdən keçirək: "Din insanın əbədiyyəti qavrama arzusunu təmin edən, ağıl və məntiqə tabe olmayan, doğuşdan gələn bir istedadıdır." "Din Allaha və insanlara qarşı davranışlarımızı tənzimləyən məsləhət və inanclar məcmuəsidir." "Din insanın aləmdə varlığını qəbul etdiyi iradələrə bağlılıq duyğusudur." "Din inanc, ibadət və əxlaq sistemidir."

Dinlər nə qədər fərqlilik təşkil edirlərsə etsinlər, bütün dinlərin ortaq üç nöqtəsi vardır: 1. İnanc. 2. Bu inanca həsr olunan ritual (ibadət). 3. Bu inancın mənsubları (camaat). Bu xüsusiyyətləri nəzərə alaraq dinə belə bir tərif vermək olar: "Din insanın inandığı ulu bir güc və bu güc adına sərgilədiyi davranışlardır". Arxeoloji qazıntılara görə, qədim zamanlarda bəzi cəmiyyətlərdə insanların müxtəlif əşyalarla dəfn edilməsi, (ana bətnindəki kimi) dizlərinin qarnına bükülü dəfn edilməsi, qəbrin üstünə qan rəngində boya tökülməsi görünmüşdür. Bunlar qədim zamanlarda da din və ibadət duyğusunun həssas olduğuna işarə edir. Çünki inanca dayanan hər bir davranış bir din, inanılan güc adına edilən hər bir davranış isə ibadətdir.

İnancımıza görə, yəhudilik, xristianlıq və İslam ilahi dinlərdir. Yəni Allah tərəfindən insanlara göndərilmişdir. Bu dinlərə həmçinin səmavi dinlər də deyilir. Səmavi dinlərin hamısı eyni inanc və etiqad prinsiplərində birləşir. Onların ortaq cəhəti Allahın yeganə yaradıcı olduğunu, ibadətin yalnız Ona ediləcəyini və Ondan başqasına ibadət edilə bilməyəcəyini bildirirlər. Oksford universitetinin ensiklopediyasında ilahi dinlərin tərifi bu şəkildə verilmişdir: "Din insanın alın yazısını müəyyənləşdirən, hörmət edilməyə, ibadət



edilməyə layiq olan gözə görünməyən ulu bir gücü qəbul etməsidir". Səmavi dinlərin digər ortaq nöqtələri isə tək Allahlı olmaları, vəhy yolu ilə nazil olmaları, peyğəmbərlərinin olması, kitablarının olması və axirətə inanmalarıdır.

İslam inancına görə, səmavi dinlərdən başqa bütün dinlər batildirlər (Batil – bir şeyin tamamən pozulmuş olması deməkdir). Digər səmavi dinlər (xristianlıq və yəhudilik) isə təhrif olunmuş (dəyişdirilmiş) və ya Allah tərəfindən hökmü ləğv olunmuş dinlərdir. Yəni Allah yəhudi və xristian dinini endirmiş, daha sonra isə mesajını yeniləyərək İslamı göndərmişdir. Əvvəlki dinlərdəki İslamla təzad təşkil edən ayətlərin hökmü ləğv olunmuşdur. Allah nəzdində sonuncu din İslamdır. Başqa bir ifadə ilə – Allahın sonuncu əmri İslamın qanunlarıdır.

**Samir Omarov**

İCTİMAİ QƏZET yeni_yol@mail.ru "ახალი გზა" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 NOYABR 2020-Cİ İL №017 (121)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## QARDABANİDƏ "MER2" FİLMİNİN TƏQDİMATI KEÇİRİLİB




Noyabrın 24-ü Qardabanidə "MER2" filminin təqdimatı keçirilib.

"Yeni Yol" xəbər verir ki, mərasimi filmin ssenari müəllifi və rejissoru Binəli İslamoğlu açaraq film haqqında məlumat verib, məqsəd və gələcək planlardan danışıb. Sonra 16 dəqiqəlik film nümayiş etdirilib.

Pandemiyaya görə təqdimat mərasiminə məhdud sayda insanlar dəvət olunub. Mərasimdə əsasən filmdə rol alan aktyorlar və onların yaxınları iştirak ediblər.

B.İslamoğlunun "Yeni Yol"a bildirdiyinə görə, uşaqlarda incəsənətə maraq yaratmaq üçün çalışıb ki, filmdə daha çox uşaq iştirak etsin.

*""BEEZ FİLM" olaraq gələcəkdə daha çox uşaqlarla işləməyi nəzərdə tuturuq. Məqsədimiz uşaqları kinoya, teatra, rəssamlığa, incəsənətə, bir sözlə, sağlam addımlarla gələcəyə hazırlamaqdır. İnşallah ki, bu pandemiya tez bir zamanda bitər və biz "BEEZ FİLM" ailəsi olaraq daha çox işlər görərək sizlərin qarşınıza çıxarıq",* - deyə B.İslamoğlu "Yeni Yol"a bildirib.

Filmin nümayişindən sonra "GeoWlan" internet şirkətinin direktoru Habil Əliyev balaca aktyorlara həvəsləndirici hədiyyələr təqdim edib.

Qeyd edək ki, "MER1" filmi kimi "MER2" filmində də əsasən Qardabanidə mövcud olan problemlər öz əksini tapıb. Filmin ssenari müəllifi və rejissoru Tiflis Azərbaycan Dövlət Dram Teatrının keçmiş aktyoru Binəli İslamoğludur. Mer rolunun ifaçısı 5 yaşlı İslam Akifdir. Filmdə həmçinin Tiflis Azərbaycan Dövlət Dram Teatrının keçmiş aktyoru Azər Musaoğlu, Zəhra Akif, Flora Əliyeva, Rauf Mamedov, Eldar Əliyev, Necati Əliyev, Rasim Həsənov, Yavər Naibov, Ramil Əhmədov, Rafail Əhmədov və Araz Əliyev rol almışdır.

## GÜRCÜSTANDA İŞSİZLİK ARTIB




Milli Statistika İdarəsinin məlumatına əsasən, bu ilin III rübündə Gürcüstanda işsizlik səviyyəsi 11,9 % təşkil edib.

Məlumata görə, bu, ötən ilin eyni dövrünə nisbətən 7 faiz çoxdur.

İyul-sentyabr aylarında şəhər yerlərində işsizlik 18,8 %, kənd yerlərində isə 4,8 % olub.

Kişilər arasında bu göstərici 13,9 %, qadınlar arasında isə 9,4 % təşkil edib.

## İQTİSADİYYAT 5,1 % KİÇİLİB



Gürcüstanın Milli Statistika İdarəsinin məlumatına əsasən, bu ilin oktyabr ayında Gürcüstanda istehsal olunmuş ümumi daxili məhsulun (ÜDM) dəyəri ötən ilin eyni dövrünə nisbətən 3,9 % az olub.

Məlumata görə, ötən ay ölkədə maliyyə sektoru istisna olmaqla bütün sahələrdə geriləmə qeydə alınıb.

Yanvar-oktyabr aylarında isə Gürcüstan iqtisadiyyatı illik müqayisədə 5,1 % kiçilib.

## GÜRCÜSTANIN TURİZMDƏN GƏLİRİ AZALIB



Gürcüstan Milli Bankının analitik hesabatına əsasən, bu ilin yanvar-oktyabr aylarında Gürcüstan turizmdən 516 milyon ABŞ dolları gəlir əldə edib.

Hasabata əsasən, bu, ötən ilin analoji dövrü ilə müqayisədə 81 % və yaxud 5,3 dəfə azdır.

Təkcə oktyabr ayında isə Gürcüstanın turizmdən gəliri 15,2 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 94 % azdır.

## AVTOMOBİLLƏRİN REEKSPORTU VƏ İDXALI AZALIB

Gürcüstandan avtomobillərin reeksportu azalıb. Statistika Xidmətinin məlumatına əsasən, 2020-ci ilin yanvar-oktyabr aylarında ümumilikdə 59 ölkəyə 33 677 ədəd minik avtomobili aparılıb. Təkrar ixracın dəyəri ümumilikdə 335,575 milyon dollar təşkil edib.

2019-cu ilin eyni dövründə Gürcüstandan avtomobillərin reeksportu 557,392 milyon dollar təşkil edib. Ötən il ölkədən 78 866 ədəd minik avtomobili aparılıb.

**2020-ci ildə Gürcüstandan avtomobillərin reeksport edildiyi 5 ölkə:**

- **Azərbaycan – 19 246 ədəd;**
- **Ukrayna – 8 555 ədəd;**
- **Rusiya – 1 647 ədəd;**
- **Ermənistan – 747 ədəd;**
- **Qırğızıstan – 742 ədəd.**

Pandemiya idxala da pis təsir göstərib. Belə ki, 2020-ci ilin yanvar-oktyabr aylarında Gürcüstan dünaynın 59 ölkəsindən 71 690 ədəd minik avtomobili alıb. Bu isə 2019-cu ilin eyni dövrü ilə müqayisədə 47,2 % azdır. Cari ildə minik avtomobillərini almaq üçün ümumilikdə 623,332 milyon dollar, 2019-cu ilin 10 ayı ərzində isə 929,254 milyon dollar xərclənib.

**2020-ci ildə Gürcüstanın avtomobil aldığı 5 ölkə:**

- **ABŞ- 53 681 ədəd;**
- **Yaponiya - 6 972 ədəd;**
- **Almaniya - 3 636 ədəd;**
- **Koreya - 1 038 ədəd;**
- **Belçika - 1 020 ədəd.**

*Mənbə: bpn.ge*

## BEYNƏLXALQ AVİAREYSLƏRƏ MƏHDUDİYYƏTLƏRİN MÜDDƏTİ UZADILIB

Mülki Aviasiya Agentliyinin məlumatına əsasən, Gürcüstanda beynəlxalq müntəzəm aviareyslərə tətbiq olunan məhdudiyyətlərin müddəti gələn il yanvarın 1-nə qədər uzadılıb.

Məlumata görə, məhdudiyyətlər Tbilisidən Münhen, Paris, Riqa, Doha, Varşava, Afina, Amsterdam, Vyana, Berlin və Milana yerinə yetirilən birbaşa uçuşlara şamil olunmur.

Qərar Kutaisi ilə Riqa, Katovitsa, Vilnüs və Dortmund şəhərləri arasındakı müntəzəm reyslərə də aid deyil.

Təsisçi: "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.